**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MİR CƏLAL HEKAYƏLƏRİNDƏ ƏDƏBİ QƏHRƏMAN VƏ ZAMAN

İxtisas: 5716.01-Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Ayşən Əsəd qızı Rəsulova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər:

filologiya elmləri doktoru, professor
**Abdulla Əsgər oğlu Abasov**

filologiya elmləri doktoru, professor
**Yeganə Nəhmətulla qızı İsmayılova**

Rəsmi opponentlər:

filologiya elmləri doktoru, professor
**Yaqub Məhərrəm oğlu Babayev**

filologiya elmləri doktoru, professor
**Nizami Tağı oğlu Məmmədov**

filologiya elmləri doktoru, professor
**Vüqar Mikayıl oğlu Əhməd**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 qeydiyyat nömrəli Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ____________

AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: ____________

filologiya elmləri üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: ____________

filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mir Cəlal Paşayev (1908-1978) XX əsr Azərbaycan ədəbiyyatına həm ustad nasir, həm böyük tədqiqatçı-alim, həm də görkəmli müəllim kimi daxil olmuşdur. Mir Cəlalın ədəbi yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafında mühüm yer tutur. Onun hekayələri həm bədii, həm də ideoloji baxımdan öz dövrünü və cəmiyyətin sosial-siyasi şəraitini əks etdirən dəyərli ədəbi nümunələrdir. Bu səbəbdən, Mir Cəlalın hekayələrindəki zaman anlayışı, qəhrəmanların daxili və xarici dünyası, sosial və satirik portretlər həm ədəbi, həm də filoloji tədqiqatlar üçün aktual tədqiqat mövzusudur.

Ədəbiyyatşünaslıqda zamanın öyrənilməsi personajların psixoloji dərinliyini anlamaq, əsərin strukturunu və dövrün sosial-mədəni mühitini təhlil etmək üçün vacibdir. Təbii ki, hadisələrin nə zaman baş verdiyini dərk etmək də öz növbəsində, oxucunun əsər və qəhrəmanlarla bağlı fikir sahibi olması və müqayisələr apara bilməsi üçün önəmlidir. Oxucunun "zaman"ı dəyişdikcə ədəbi əsərə baxış, ona verilən məna da dəyişir. Bu baxımdan, fikrimizcə, ədəbiyyatda bəzi mövzuların araşdırılması aktuallığını hər zaman qoruyur. Zaman, məkan, ədəbi qəhrəman kimi mövzular da bu qəbildəndir.

Mir Cəlal hekayələrində zaman və məkanın necə formalaşdığı, dövrün sosial və ideoloji şəraitində bu münasibətlərin necə dəyişdiyinin öyrənilməsi də müxtəlif dövrlərdə tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Ədibin əsərlərində qəhrəman obrazlarının müsbət və mənfi tərəflərinin vurğulanması, onların zamanla əlaqələndirilməsi, o cümlədən sosial və satirik qəhrəmanların ədəbi təsviri cəmiyyətin müxtəlif təbəqələrinin təhlilinə və bədii təsvirin ideologiyaya təsirini anlamağa şərait yaradır. Bu səbəbdən Mir Cəlal hekayələrində zaman anlayışının, eləcə də qəhrəman obrazlarının dərindən təhlili Azərbaycan ədəbiyyatı tarixi, eyni zamanda müasir ədəbiyyatşünaslıq sahəsi üçün böyük əhəmiyyət daşıyır. Tədqiqatın əsas məqsədi, Mir Cəlalın hekayələrindəki bu ədəbi xüsusiyyətləri məhz müasir yanaşmalar baxımından təhlil etməkdir.

Yazıçının əsərlərinin, xüsusilə də romanlarının təhlilinə aid bir

çox tədqiqatda onun əsərlərində ədəbi portret, dil və üslub xüsusiyyətləri, sosial və satirik qəhrəmanlar, zaman və məkanın ədəbi quruluşu kimi mövzulara toxunulmuşdur[1].

Azərbaycan hekayəsinin 1930-1978-ci illər arasında davam edən şərəfli inkişaf tarixi, daha çox "müasirlik tarixi" kimi Mir Cəlalın adı ilə bağlıdır. Buna görə də Mir Cəlalın yaradıcılığı tənqid və ədəbiyyatşünaslığın diqqətini hələ 30-cu illərdə cəlb etmiş, haqqında tədqiqatlar aparılmış, oçerk və məqalələr, çoxsaylı monoqrafiyalar yazılmışdır. Kamran Əliyev Mir Cəlal əsərlərinə olan bu maraqdan bəhs edərkən qeyd edir ki, "*Mir Cəlal Azərbaycan ədəbiyyatşünaslığı tarixində tənqidçi və ədəbiyyatşünasların diqqətini sənətkarlıq məsələlərinin təhlilinə yönəltməkdə mühüm xidmətləri olan böyük simadır*[2]".

Lakin ədibin əsərlərində zaman və məkanın rolu, xüsusilə qəhrəman obrazları ilə əlaqəsi, ədəbiyyatşünaslıqda 1960-1970-ci illərdən sonra daha geniş şəkildə öyrənilməyə başlamış, onun yazı üslubunun, dövrün sosial və siyasi təsirləri ilə necə əlaqələndiyini araşdıran əsərlər, o dövrün ədəbi mühitini daha yaxşı anlamağa imkan vermişdir.

Qeyd edək ki, Mir Cəlal yaradıcılığı ilə bağlı Mirzə İbrahimov, Məmməd Cəfər, Mehdi Hüseyn, Hidayət Əfəndiyev, Həmid Araslı, Əziz Şərif, Mirzağa Quluzadə, Abbas Zamanov, İlyas Əfəndiyev, Məsud Əlioğlu, Əkbər Ağayev, Yusif Seyidov, Bəkir Nəbiyev, Pənah Xəlilov, Kamal Talıbzadə, Bəxtiyar Vahabzadə, Xalid Əlimirzəyev, Nurəddin Babayev, Şirindil Alışanlı kimi yazıçı,

---

[1] Hüseynova, H. Mir Cəlal Paşayevin bədii əsərlərinin dil və üslub xüsusiyyətləri: /filologiya üzrə elmlər doktoru dissertasiyası. / – Bakı, 2012. – 326 s.; Hüseynov, S. Mir Cəlal Paşayevin elmi-pedaqoji fəaliyyəti: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyası. / – Gəncə, 2010. – 125 s.; Mustafayev, T. XX əsr Azərbaycan nəsrinin poetikası:/ filologiya elmləri doktoru dissertasiyası. / – Bakı, 2005. – 264 s. (Dissertasiyada M.Cəlalın "Bir gəncin manifesti" romanından və hekayələrindən də bəhs olunur: s.144, 146-147, 155, 158-159); Vəkilova, D. Mir Cəlalın ədəbi-tənqidi görüşləri: /filologiya elmləri namizədi dissertasiyası. / – Bakı, 1990. – 210 s.; Xəlilova, F. Mir Cəlalın bədii əsərlərinin bəzi sintaktik üslub xüsusiyyətləri: / filoloji elmlər namizədi dissertasiyası. / –Bakı, 1962. – 269 s.

[2] Əliyev, K. Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. / K.Əliyev. – Bakı: Elm və təhsil, – 2013. –274 s.

tənqidçi və alimlərin dəyərli tədqiqatları vardır[3].

Bundan əlavə, Yaqub İsmayılovun "Mir Cəlalın yaradıcılığı"[4], Cəfər Xəndanın "Mir Cəlal"[5], Ramiz Dənizin "Qəlblərdə yaşayan Mir Cəlal"[6] və başqa monoqrafiyalarda, eyni zamanda 1960-cı ildə ədəbiyyatşünas alim Əhəd Hüseynovun "Mir Cəlalın hekayələri"[7] mövzusunda müdafiə etdiyi dissertasiya işində ədibin həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələləri əks etdirən oxunaqlı, dərin məzmunlu hekayələri ilə bağlı təhlillər aparılmışdır.

Qeyd olunan əsərlərdən başqa, M.Arifin "Qəzəbli hekayələr"[8], M.Rzaquluzadənin "Nəsrimizdə kiçik hekayə"[9], R.Rzanın "Uşaq ədəbiyyatının ideya və bədii səviyyəsinin yüksəlişi uğrunda"[10], C.Xəndanın "Mir Cəlalın hekayələri"[11], O.Həsənovun "Mir Cəlalın novellaları"[12], Y.Əzimzadənin "Həyat hekayələri"[13],

---

[3] İbrahimov, M. Xəlqilik və realizm cəbhəsindən / M.İbrahimov. – Bakı: Azərnəşr, – 1961. – 524 s.; Cəfərov, M. Sənət yollarında / M.Cəfərov. – Bakı: Gənclik, – 1975. – 367 s.; Hüseyn, M. Ədəbiyyat və sənət məsələləri / M.Hüseyn. – Bakı. – 1958. – 610 s.; Hacıyev, C. Mir Cəlal / C.Hacıyev. – Bakı:Bilik cəmiyyəti, – 1958. – 48 s.; Ağayev, Ə. Sənətkarlıq məsələləri / Ə.Ağayev. – Bakı: Azərnəşr, – 1962. – 167 s.; Nəbiyev, B. Yeni hekayələrimiz haqqında // –Bakı: Azərbaycan, – 1958. №2, – s.214-224 və s.

[4] İsmayılov, Y. Mir Cəlalın yaradıcılığı / Y.İsmayılov. – Bakı: Elm, –1975. –236 s.

[5] Xəndan, C. Mir Cəlal: anadan olmasının 50 illiyi münasibətilə / C.Xəndan; red.N.Babayev; Azərb. SSR Siyasi və elmi bilikləri yayan cəmiyyət. – Bakı. – 1958. – 48 s.

[6] Dəniz, R. Qəlblərdə yaşayan Mir Cəlal / R. Dəniz; red. Ç. Abdullayev. – Bakı: Yurd NPB, – 2008. – 159 s.

[7] Hüseynov, Ə. Mir Cəlalın hekayələri: /filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya / – Bakı, 1960. – 229 s.

[8] Arif, M. Qəzəbli hekayələr //Ədəbiyyat qəzeti, – 1941, 11 dekabr.

[9] Rzaquluzadə, M. Nəsrimizdə kiçik hekayə // Ədəbiyyat. –1939, 24 aprel.

[10] Rza, R. Uşaq ədəbiyyatının ideya və bədii səviyyəsinin yüksəlişi uğrunda // Ədəbiyyat qəzeti, – 1952, 16 yanvar.

[11] Xəndan, C. M.Cəlalın hekayələri. Azərbaycan ədəbiyyatı (sovet dövrü) / C.Xəndan. – 1940. – s.87-93.

[12] Həsənov, O. Mir Cəlalın novellaları // Ədəbiyyat qəzeti, – 1939, 30 yanvar. –s.3

[13] Əzimzadə, Y. Həyat hekayələri //Ədəbiyyat qəzeti, –1946, 3 iyul. –№ 18 (452), – s.4.

Ə.Mirəhmədovun "Mir Cəlalın yeni hekayələri"[14], Ə.Hüseynovun "Mir Cəlalın hekayələrində satira və yumor", "Mir Cəlalın Böyük Vətən müharibəsi illərində yazdığı hekayələr"[15], Q.Xəlilovun "Hekayələr haqqında"[16], Zahid Xəlilin "Ədəbiyyatımızda ailə və məişət məsələsi"[17] adlanan, Mir Cəlalın bədii nəsrindən – hekayələrindən bəhs edən məqalələrdə də maraqlı təhlillər yer almışdır.

Sadalanan əsərlərə baxmayaraq, Mir Cəlalın hekayələrində yer alan zamanın bədii quruluşunun, eyni zamanda qəhrəman obrazlarının dərin təhlilinə, ədibin yaradıcılığının çoxşaxəli və mürəkkəb xüsusiyyətləri, əsərlərindəki sosial və mədəni məsələlərin geniş şəkildə işıqlandırılmasına hələ də ehtiyac duyulur.

Mir Cəlal hekayələrində zaman və obrazlar, mövzu ilə ideyanın, obyektlə bağlı müəllif fikirlərinin vəhdətindən, müsbət idealın tələb və ehtiyaclarından hasil olur. Buna nümunə olaraq "Vətən hekayələri" və "Silah qardaşları"[18] kitablarında toplanan hekayələri göstərə bilərik. Burada yer alan, xüsusilə ailə-məişət, müharibə mövzusuna həsr olunan hekayələrdə zaman və ədəbi qəhrəman problemi yüksək ideya məzmunu, kamil bədii səviyyəsi ilə öz həllini tapır.

Onun hər bir əsərində, o cümlədən, hekayələrində müasirliklə yanaşı, tarixin ən qabarıq hadisələri öz əksini tapır. Mir Cəlal əsərlərində sosial problemlərin təqdimi ilə yanaşı, bəzən ailə-məişət, mənəvi-əxlaqi kamillik məsələlərinin bədii obrazı yaradılmış, bəzən əmək, zəhmət, təlim-tərbiyə mövzusundan danışılmış, bəzən isə

---

[14] Mirəhmədov, Ə. Mir Cəlalın yeni hekayələri //Ədəbiyyat qəzeti. – 1943, 13 fevral.

[15] Hüseynov, Ə. Mir Cəlalın hekayələrində satira və yumor // –Bakı: Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun əsərləri,– 1957. IV cild, II bur., –s.197-213; Mir Cəlalın Böyük Vətən müharibəsi illərində yazdığı hekayələr // – Bakı: V.İ.Lenin adına APİ-nin əsərləri. İctimai elmlər seriyası,– 1960, XIII cild, – s.122-131.

[16] Xəlilov, Q. Hekayələr haqqında //Ədəbiyyat qəzeti, –1954, 10 aprel.

[17] Xəlil, Z. Ədəbiyyatımızda ailə və məişət məsələsi // Ədəbiyyat qəzeti, – 1940, 25 oktyabr.

[18] Mir Cəlal. Vətən hekayələri / Mir Cəlal. – Bakı: Azərnəşr, – 1942. 39 s.; Silah qardaşları: hekayələr / red. R.Salamova. –Bakı: Gənclik, –1974. – 293 s.

satira və ya yumora yer verilərək qarışıq duyğular ön plana çəkilmişdir.

Mir Cəlal əsərləri bugünkü ictimai həyatla yaxından səsləşdiyinə görə də aktuallığını qorumaqdadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Mir Cəlalın müxtəlif mövzularda çap olunmuş hekayələri, həmçinin, arxivdə saxlanılan və hələ çap olunmamış əlyazmalarında yer alan ədəbi qəhrəmanlar və zaman anlayışıdır. Tədqiqatın predmeti Mir Cəlal Paşayevin hekayələrindəki zaman anlayışı, ədəbi qəhrəmanların formalaşması və sosial mühitlə əlaqəsi, həmçinin dil və üslub xüsusiyyətləri əsasında qəhrəmanların daxili dünyasının təqdim olunmasıdır. Burada həm hekayələrdəki bədii portretlərin, həm də qəhrəmanların sosial və əxlaqi problemlərinin təhlili əsas götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqat, Mir Cəlal Paşayevin hekayələrində ədəbi qəhrəman və zaman anlayışlarının bədii təhlilini həyata keçirmək məqsədi daşıyır. Həmin məqsəd çərçivəsində, müəllifin əsərlərində zamanın rolu, qəhrəman xarakterlərinin formalaşması, eləcə də sosial və satirik qəhrəmanların ədəbi təsviri araşdırılmışdır. Tədqiqatın məqsədi Mir Cəlalın hekayə yaradıcılığında zamanın quruluş xüsusiyyətlərini araşdırmaq, onların qəhrəmanların xarakterinin formalaşmasında oynadığı rolu müəyyənləşdirmək və bu qarşılıqlı əlaqənin əsərlərin ümumi ideya-estetik məzmununa təsirini sistemli şəkildə təhlil etməkdir.

Mir Cəlalın hekayə yaradıcılığında zamanın quruluş xüsusiyyətlərini araşdırmaq, onların qəhrəmanların xarakterinin formalaşmasında oynadığı rolu müəyyənləşdirmək və bu qarşılıqlı əlaqənin əsərlərin ümumi ideya-estetik məzmununa təsirini sistemli şəkildə təhlil etmək əsas hədəfdir.

Tədqiqat işində qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- Mir Cəlalın hekayələrində ədəbi qəhrəman anlayışının nəzəri aspektlərini öyrənmək və bu anlayışın xarakterinin formalaşmasını araşdırmaq;
- Bədii nəsrdə zamanın rolunu və bu zamanın qəhrəmanlarla əlaqəsini təhlil etmək;
- Mir Cəlalın hekayələrində dil və üslub xüsusiyyətlərini

araşdırmaq və bunların əsərin ümumi strukturuna necə təsir etdiyini müəyyənləşdirmək;

- Satirik və sosial qəhrəmanların ədəbi təsvirini və onların cəmiyyətdəki yerini təhlil etmək;

- Müasirlik və ənənəvi mühitin qarşılıqlı əlaqəsini və bu əlaqənin Mir Cəlalın qəhrəmanlarının inkişafına təsirini araşdırmaq.

**Tədqiqat metodları.** Tədqiqat işində əsas etibarilə elmi-analitik təhlil və tarixi-müqayisəli metoddan istifadə edilmişdir. Tədqiqat prosesində mövzu ilə bağlı ədəbi tənqid və ədəbiyyatşünaslıq təcrübəsində mövcud olan elmi-nəzəri yanaşmalardan istifadə olunmuş, bu yanaşmalar işin metodoloji bazasını təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Mir Cəlalın hekayələrində zaman anlayışı qəhrəmanların xarakterlərinin formalaşmasında və hadisələrin inkişafında mühüm rol oynayır;

- Ədəbi qəhrəmanlar Mir Cəlalın hekayələrində müasirlik və ənənəvi dəyərlərin qarşılıqlı təsirini əks etdirir;

- Mir Cəlalın hekayələrində dil və üslub xüsusiyyətləri qəhrəmanların daxili dünyasının dərindən və çoxşaxəli təqdim olunmasına imkan yaradır;

- Satirik və sosial qəhrəmanların ədəbi təsviri cəmiyyətin müxtəlif təbəqələrinin mənəvi və sosial vəziyyətlərini təsvir edir və tənqidi yanaşma ortaya qoyur;

- Mir Cəlal hekayələri yarandığı illərin insan və zaman faktını üzə çıxarmaq, dövrün mənəvi-psixoloji əhvali-ruhiyyəsinə aydınlıq gətirməyə xidmət etmiş, müxtəlif xarakterli, müxtəlif taleli insanların bədii obrazları ilə zəngin olmuşdur;

- Mir Cəlalın əsərlərindəki qəhrəmanlar, dövrün sosial və mədəni mühitinə uyğun olaraq inkişaf edir və bu inkişafda zaman önəmli yer tutur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda, Mir Cəlalın qəhrəmanlarının daxili və xarici dünyasının təsviri və bu təsvirlərin ədəbiyyatın bədii quruluşunda oynadığı rol dərindən və yeni yanaşmalarla təhlil edilmiş, zaman – qəhrəman əlaqəsi, bu əlaqəyə ənənəvilik və müasirliyin təsiri araşdırılmışdır.

-Tədqiqatda Mir Cəlalın hekayələrində ədəbi qəhrəman anlayışının və zaman kateqoriyasının bədii strukturunun sistemli təhlili aparılır; bu kontekstdə qəhrəman tipologiyası ilə zamanın təşkili prinsipləri arasındakı qarşılıqlı əlaqə elmi şəkildə əsaslandırılır;

- Mir Cəlalın satirik və sosial qəhrəmanlarının bədii təsvirinə xüsusi diqqət yetirilmiş və qəhrəmanların sosial məsələlərin ifadə olunmasındakı rolu araşdırılmış, onların xarakterlərinin və dövrün sosial, mədəni şəraitinə uyğun şəkildə formalaşmasının geniş təhlili aparılmışdır;

- Tədqiqat, Mir Cəlalın hekayələrindəki ədəbi qəhrəman və zaman anlayışlarının bədii təhlilinə yeni bir yanaşma gətirir. Əsərlərin zaman quruluşunu hərtərəfli araşdıraraq, bu anlayışların qəhrəmanların daxili aləmi və sosial mühitlə əlaqəsinin necə formalaşdığını göstərmişdir.

- Yazıçının çap olunmayan 17 hekayəsi aşkar edilərək təhlilə cəlb edilmişdir (əsərlər Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunur).

Bundan əlavə, Mir Cəlal hekayələrinin xronologiyasının tədqiqatda yer alması da elmi yenilik kimi təqdim oluna bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində irəli sürülən yeniliklər, ədəbi qəhrəman və zaman problemi haqqında irəli sürülən fikir və müddəalar Mir Cəlal Paşayevin ədəbi irsinin daha dərindən anlaşılmasına və qiymətləndirilməsinə xidmət etməklə yanaşı ədəbiyyatşünaslıq elmində yeni tədqiqatlar üçün də fərqli perspektivlər açır.

Dissertasiya Mir Cəlal irsini araşdıran, onun hekayələrinə müraciət edən tələbələr, magistrantlar, doktorantlar, gənc tədqiqatçılar üçün faydalı mənbə ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının 29 mart 2024-cü il tarixli iclasında (protokol № 8) müzakirə olunaraq müdafiəyə tövsiyə olunmuşdur. Araşdırmanın məzmunu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tövsiyə edilən Azərbaycanın və eləcə də müxtəlif xarici ölkələrin elmi toplu və dövri elmi nəşrlərində məqalə və tezis

şəklində dərc olunmuş, həmçinin yerli və beynəlxalq konfranslarda oxunmuş məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş (14054 şərti işarə), 3 fəsil (I fəsil – 66192, II fəsil – 84291, III fəsil – 52411 şərti işarə), nəticə (10768 şərti işarə), ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiya işinin, ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla, ümumi həcmi 227716 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, mövzunun işlənmə dərəcəsindən bəhs edilir, tədqiqatın nəzəri-metodoloji əsasları, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti göstərilir, aprobasiyası və quruluşu haqqında ətraflı məlumat verilir.

Dissertasiyanın I fəsli **"Ədəbi qəhrəman və zaman anlayışının bədii təhlili və nəzəri aspektləri"** adlanır. Fəsil üç paraqrafdan ibarətdir.

I fəslin "**Ədəbi qəhrəman anlayışının nəzəri aspektləri və onun xarakterinin formalaşması"** adlanan birinci paraqrafında ədəbi qəhrəmanın ədəbiyyatın mərkəzində olan, mətndə hadisələrin inkişafını təmin edən, oxucunun empatiyasını çəkən və ona həyatın müxtəlif yönlərini göstərən bir obraz olduğu qeyd olunur. Qəhrəman ədəbiyyatda yalnız fiziki varlıq deyil, həm də ideoloji, sosial, əxlaqi və psixoloji baxımdan zəngin bir şəxsiyyətdir. Onun funksiyası sadəcə hadisələri irəlilətmək deyil, eyni zamanda cəmiyyətin müxtəlif təbəqələrini və zamanın sosial reallıqlarını da özündə əks etdirməkdir.

Ədəbi qəhrəmanlar çox zaman oxucuların müstəqil düşünmə qabiliyyətini formalaşdırır, onlara cəmiyyətin sosial, psixoloji və

əxlaqi aspektlərini göstərir. Mir Cəlalın hekayələrindəki qəhrəmanlar da ümumilikdə bu funksiyanı daşıyır. Qəhrəmanlar sadəcə öz daxili dünyasında baş verənləri deyil, həm də xarici dünya ilə mübarizəni və bu mübarizənin nəticələrini əks etdirirlər. Mir Cəlalın hekayələrində qəhrəman, cəmiyyətin təzyiqlərinə qarşı durmaqla yanaşı, öz daxili aləmində də dərin dəyişikliklər yaşayır.

Qəhrəman obrazlarının funksiyasına həmçinin onların əxlaqi dilemmasında baş verən dəyişikliklər də daxildir. Ədəbi qəhrəmanın cəmiyyət və təbiət qarşısında nümayiş etdirdiyi dəyişikliklər, onu daha çox sosial dəyişikliklərin təsiri altında olan bir obraz kimi göstərir. Həmçinin, ədəbiyyatın qəhrəmanı müxtəlif sosial münasibətlərin, insan münasibətlərinin nəzərdən keçirilməsi üçün bir vasitədir.

Ədəbi qəhrəmanların ənənəvi tipləri, məsələn, epik qəhrəmanlar, onların mübarizə etdiyi böyük ideallar və qarşısında duran ağır mübarizələr ilə tanınır. Onlar zamanın, məkanın və cəmiyyətin qarşısında böyük mübarizələr aparırlar. Mir Cəlalın əsərlərində bu qəhrəmanlar daha çox sosial dəyişikliklərin içindədirlər, lakin bu dəyişikliklər onların daxili dünyalarında da izlər buraxır.

Ədəbi qəhrəmanın xarakteri və şəxsiyyəti əsasən onun psixoloji və sosial mübarizələrinin nəticəsidir. Qəhrəman xarakterinin formalaşmasında sosial təsirlər, şəxsi təcrübələr və cəmiyyətdəki mövqeyinin də böyük rolu var. Mir Cəlalın qəhrəmanlarının daxili aləmi geniş şəkildə təhlil olunur və onların əxlaqi dilemmasında baş verən dəyişikliklər cəmiyyətin sosial məsələləri ilə əlaqələndirilir.

Mir Cəlalın qəhrəmanlarının bir çoxu bəzən cəmiyyətin tələbləri ilə öz daxili istəkləri arasında qalan, bəzən isə öz mövqeyini birmənalı olaraq müəyyənləşdirə bilməyən mürəkkəb şəxsiyyətlərdir. Onlar öz sosial mühitindəki çətinliklərə qarşı mübarizə aparır və daxili dünyasındakı dəyişikliklər əsərin əsas süjet xəttini təşkil edir. Məsələn, "İclas qurusu"[19] hekayəsinin qəhrəmanı, sosial mühitin təsiri altında bir tərəfdən özünü sübut etməyə çalışır, digər tərəfdən isə daxili aləmindəki çatışmazlıqları və mürəkkəbliyi ilə üzləşir.

---

[19] Mir Cəlal. İclas qurusu // –Bakı: Kirpi, – 1954. №10, –s.6

Müəllifin “Ölüsoyan”[20] hekayəsindəki qəhrəmanlar, xüsusilə Ağa Səməd və Rüstəm isə, müxtəlif sosial və daxili təzyiqlərin təsiri altında olan şəxslərdir. Hekayədə əlaqələrin pozulması, böyük sosial təzyiqlər və əxlaqi dilemmalar qəhrəmanların xarakterlərinin formalaşmasına təsir edir.

Ümumiyyətlə, Mir Cəlal hekayələrində müxtəlif xarakterə malik, fərqli talelər yaşayan insanların bədii obrazlarına çox rast gəlmək olar. “Badamın ləzzəti”[21], “Subaylıq fəlsəfəsi”[22], “Anket Anketov”, “İclas qurusu” və başqa hekayələrin qəhrəmanları buna nümunədir.

Ədəbi qəhrəmanın xarakterinin formalaşmasında onun yaşadığı dövr və sosial şərtlər də mühüm yer tutur. Mir Cəlalın “Xatirə hekayələri”ndən olan “Ərəb qardaş”[23] hekayəsində, qəhrəman yalnız şəxsi təcrübələrinə görə deyil, həm də həmin dövrün mədəni və siyasi təsiri altında hərəkət edir. Bu səbədən onların mübarizəsi sadəcə şəxsi maraq deyil, eyni zamanda zamanın şərtlərinə üsyandır.

Dissertasiyanın I fəslinin ikinci paraqrafı **“Bədii nəsrdə zamanın rolu”** adlanır.

Ədəbiyyatda zaman, əsərin strukturunu və məzmununu formalaşdıran vacib bir amildir. Zamanın təqdimatı, həmçinin onun qəhrəmanların şəxsiyyətində yaratdığı dəyişikliklər də əhəmiyyətlidir. Klassik ədəbiyyatın zaman anlayışından fərqli olaraq, müasir ədəbiyyatda zaman daha çox subyektiv bir təzahürə çevrilir.

Mir Cəlalın əsərlərində zaman və məkan arasında əlaqə, əslində, cəmiyyətin və fərdin inkişafını əks etdirən bir dinamikadır. Burada zaman çox vaxt qəhrəmanın daxili dünyasına nüfuz edir, yəni qəhrəmanın əxlaqi, sosial və psixoloji inkişafını izah etmək üçün zaman məkanı da əhatə edir.

Məkanın zamanla əlaqəsi Mir Cəlalın hekayələrində

---

[20] Mir Cəlal. “Mənalı sükut”, “Saxla”, “Bir qəlbin yanğısı”, “Bar ağacı” və s. hekayələr: avtoqraf (ərəb əlifbası ilə) // S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond 1, siyahı №1, 149 vərəq.

[21] Mir Cəlal. Badamın ləzzəti // – Bakı: Şərq qadını, – 1937. №21, – s.24-27

[22] Mir Cəlal. Subaylıq fəlsəfəsi // –Bakı: Ədəbiyyat və incəsənət, – 1957, 13 yanvar.

[23] Mir Cəlal. Ərəb qardaş; Ləyaqət; Gülbəsləyən qız; Ehtiram: Xatirə hekayələr // – Bakı: Azərbaycan, – 1961. №10, – s.22-38

qəhrəmanların yaşadığı dəyişiklikləri daha mürəkkəb və çoxqatlı edir. Məsələn, zamanın dəyişməsi, cəmiyyətin mövcud reallıqları ilə əlaqədar olaraq, fərdin inkişafına təsir edir və yalnız fiziki bir yer deyil, həm də sosial-psixoloji çərçivə kimi hesab olunur.

*"XX əsrin əvvəllərində qələmə alınan hekayələrin bir qismində zaman kateqoriyası sühetin sərhədləri daxilində dövr edir. Konfliktin şəxsi münasibətlər üzərində qurulması, məişət problemlərindən qaynaqlanması məsələsi əksərən qapalı zaman içərisində verilir[24]".*

Obyektiv zaman, ədəbiyyatda ümumi bir zaman çərçivəsi daxilində hərəkət edən hadisələri əks etdirir. Subyektiv zaman isə, qəhrəmanın öz daxili aləmindəki zamanını göstərir. Bu zaman, daha çox qəhrəmanın psixoloji vəziyyətinə uyğun olaraq dəyişir və zamanın təkrarı, qəhrəmanın təcrübələrinə bağlı olaraq müxtəlif formalar alır.

Mir Cəlalın müharibə dövründən bəhs edən hekayələrindən biri "Bar ağacı"[25] adlanır. Yazıçının lirik hekayələrindən olan əsərdə savaş dönəmində cəmiyyətin üzləşdiyi çətinliklər bir ailənin timsalında verilmişdir. Döyüşə gedən Şəhriyarın evdən, bacısından ayrıla bilməməsi, evinə bir daha geri dönməyəcək şəkildə baxması oxucuda dövr haqqında canlı təsəvvür yarada bilir. Yeddi yaşlı Nailə qardaşının arxasınca baxır və hər şeydən xəbərsiz şəkildə gülümsəyir. Qardaşı üzündən öpür, onu dilə tuturdu. Əsərdəki bülbül də simvolik obrazdır. Şəhriyar qapıdan çıxmadan onun qabına yem tökür, suyunu təzələyir, ona nəvazişlə yanaşır. O, bir anlıq baxan olmayacağını düşünərək bülbülü qəfəsdən açıb buraxmaq istəyir, lakin sonradan yuvasız bir quşun yaşaya bilməyəcəyi ehtimalını düşünərək fikrindən daşınır. Şəhriyar müharibəyə gedərkən arxasında iki, ona möhtac varlıq qoyur.

"Sünbül" hekayəsində də zaman, qəhrəmanların yaddaşında dərin izlər buraxır. Hekayənin baş qəhrəmanı, Vahid, keçmişdəki

---

[24] Quliyeva, M.M. XX əsrin əvvəlləri Azərbaycan hekayəsinin poetikası: /filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın avtoreferatı/ – Bakı, 2021. – 30 s.

[25] Paşayev, M.C. "Mənalı sükut", "Saxla", "Bir qəlbin yanğısı", "Bar ağacı" və s. hekayələr: avtoqraf (ərəb əlifbası ilə) // S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond 1, siyahı №1, 149 vərəq.

xatirələrini və uşaqlıq dövrünü daim təzələyir. O, Sünbül ilə keçirdiyi məktəb illərini xatırlayarkən, zamanın necə dəyişdiyini və keçmişin təsirini özündə hiss edir. Bu keçmişin təsiri altında Vahid, Sünbülü gördükcə, əvvəlki günləri və o vaxtlar yaşadığı sadə, saf münasibətləri yenidən düşünür. O, zamanla dəyişən insan təbiətini, xüsusilə də Sünbülün inkişafını müşahidə edir. Keçmişin Vahidin daxili dünyasında necə təsir göstərdiyi və onun həyatını necə formalaşdırdığı hekayədə aydın şəkildə göstərilir.

Mir Cəlalın "Qayğı" hekayəsi, 1941-1945-ci illər arasında yazılmış bir əsər olaraq, müharibə dövrünün ağır şərtləri altında Azərbaycan cəmiyyətinin mənəvi və sosial vəziyyətini dərinliklə əks etdirir. Bu hekayə, dövrün cəmiyyətinin qarşılaşdığı sosial və mənəvi çətinliklərə işıq tutmaqla yanaşı, müharibənin qadınlar və ailələr üzərindəki təsirini, həmçinin xalqın azadlıq arzularını və mübarizələrini təhlil edir. Hekayənin əhəmiyyətli bir xüsusiyyəti, ilk dəfə olaraq "Azad Azərbaycan" ifadəsinin işlədilməsidir, bu da əsərin yazıldığı dövrün milli və siyasi şüurunun güclənməsinin simvoludur.

Dissertasiyanın birinci fəslinin üçüncü paraqrafı **"Zamanın formaları və qəhrəmanla əlaqəsi"** adlanır.

Tanınmış rus ədəbiyyatşünas, professor D.Lixaçov bədii əsərdə müəllif zamanı və faktik zaman kimi qruplaşma apararaq, səbəb-nəticə, psixoloji və assosiativ hadisə məcmusunun bədii ədəbiyyatda zaman kimi dərkini əsas götürür. D.Lixaçovun fikrincə, "*...bədii ədəbiyyatda zaman sadəcə təqvimdəki günlük sayım deyil, hadisələrin uyğunluğudur*". *...Yazıçı öz əsərində hadisələrin cərəyan etdiyi vaxtı da yaradır. Əsərdə zaman yüzillikləri və ya yalnız bir neçə saatı əhatə edə bilər*[26]*"*.

Mir Cəlalın hekayələrində "zaman qırılması" – qəhrəmanın keçmişlə indinin, köhnə ilə yeninin arasında qalması anlamında çıxış edir. Məsələn, qəhrəman kənddə doğulmuş, sonra şəhərə gəlmişsə, keçmiş kənd həyatı və indiki şəhər reallığı arasında zaman dilimləri toqquşur. Bu, qəhrəmanın daxili aləminin zamanla əlaqəsinin mürəkkəbliyini göstərir. Yazıçının bu zaman düzümü qəhrəmanın

---

[26] Лихачев, Д. Внутренный мир художественного произведени // Вопросы литературы, – 1968. №8, – с.75

psixoloji və sosial təbiətini daha dərindən açır.

Professor U.A.Kort "Müasir bədii nəsr və insan zamanı" adlı əsərində zamanı *"ritmik, polifonik və melodik olaraq üç qrupa ayırır. Ritmik zaman keçmişi dəyərləndirməklə bağlıdır və gələcəyə istiqamətlənir, polifonik zaman bir neçə hadisənin eyni vaxtda baş verməsini əks etdirir, melodik zaman gələcəyə yön alır və hadisələrin təsvirindəki ardıcıllıq gələcək zamanda sona yetir"*[27].

Zaman dəyişdikcə qəhrəmanın dünyaya münasibəti də dəyişir. Yazıçı göstərir ki, qəhrəman hansı dövrdə yaşamasından asılı olmayaraq, zamanın gətirdiyi yeniliklərə eyni reaksiya verir – bəzi qəhrəmanlar adaptasiya olur, bəziləri isə geri qalır və bu, onların inkişafına mənfi təsir göstərir. Bu dəyişmə həm sosial, həm də daxili aləmlə əlaqəlidir.

Müasir ədəbiyyatda zaman-məkan anlayışının qeyri-xətti təzahürləri geniş yayılmışdır. Mir Cəlalın hekayələrində də zaman və məkan bəzən "ənənəvi xətt"dən çıxır – yəni qəhrəmanın daxili zaman təcrübəsi, xarici hadisələrlə sintez olunur və oxucuya vahid zaman kimi təqdim olunmur. Bu yanaşma qəhrəmanın təcrübəsini daha mürəkkəb və çoxölçülü edir.

"Ərəb qardaş" hekayəsində zaman həm tarixi, həm də sosial bir kontekstdə mühüm rol oynayır. Hekayə, məkan və zamanın birləşdiyi bir nöqtədə qurulur: Bakının sosial və mədəni dəyişiklikləri ilə bərabər, qəhrəman da zamanla mübarizə edir. Hekayənin xüsusiyyətlərindən biri odur ki, burada zaman, yalnız keçmişin xatirələrini deyil, həmçinin gələcəyin tələblərini də əks etdirir. Zamanın qəhrəmanın həyatına təsiri yalnız onun xarakterində deyil, həm də qəhrəmanın zamanla qurduğu əlaqələrdə də özünü göstərir.

Mir Cəlalın qəhrəmanları nadir hallarda "eyni" qalır – zaman onları dəyişdirir, və bu dəyişmə əsərin strukturunda və ideyasında açıq görünür.

Məsələn, "Zirəklik" hekayəsinin qəhrəmanı olan Mehnəli müəllim vasitəsilə insanın xarakterinin inkişafı və dəyişməsi, zamanın və ətraf mühitin şəxsiyyət üzərində yaratdığı təsirlər

---

[27] Wesley, A.Kort. Modern Fiction and Human Time: A Study in Narrative and Belief // Philosophy and Literature, Johns Hopkins University Press, - 1989. Vol 13, no.1, - p.190

mükəmməl şəkildə göstərilir, bu təsirlərdə təhsil, mədəniyyət, sosial təzyiqlər və şəxsi prinsiplərin rolu vurğulanır.

"İlyas" əsərində də daha çox ümumiləşdirilmiş qəhrəman modeli yaradılsa da obrazın mənəvi-psixoloji inkişafı ön plana çəkilərək qəhrəmanın formalaşma prosesi, onun dünyagörüşünün inkişafı və daxili dəyişimi əsas diqqət mərkəzində tutulur.

Məkan (kənd, şəhər, sosial mühit, keçmiş ev, yeni iş yeri və s.) və zamanın qarşılıqlı əlaqəsi Mir Cəlalın hekayələrində qəhrəmanın inkişafını təyin edir. Məkan zamanın inkişaf və dəyişmə prosesinin reallaşdığı əsas sahədir. Məsələn, qəhrəmanın keçmiş kənd mühitindən gəlməsi və indiki şəhər reallığında yaşaması – burada məkan və zamanın vəhdəti qəhrəmanın mənəvi dəyişimini müəyyənləşdirən əsas mühit rolunu oynayır.

Bu fəsildə belə bir nəticəyə gəlirik ki, Mir Cəlalın hekayələrində zaman və qəhrəman arasındakı qarşılıqlı əlaqə əsərin ümumi strukturunda mühüm yer tutur. Bu əlaqə, yalnız xarakterlərin inkişafını deyil, həm də cəmiyyətin müxtəlif təbəqələrindəki sosial və ideoloji münaqişələri təhlil etməyə şərait yaradır. Müəllifin "İclas qurusu", "Ölüsoyan", "Ərəb qardaş" kimi əsərlərinin qəhrəmanlarının təhlili zamanı biz bunun daha aydın şahidi oluruq.

Dissertasiyanın II fəsli **"Mir Cəlal hekayələrinin dili, qəhrəmanları və bədii üslubunun təhlili"** adlanır. Fəsil üç paraqrafdan ibarətdir.

**"Mir Cəlal hekayələrində dil və üslub xüsusiyyətlərinin təhlili"** adlanan birinci paraqrafda Mir Cəlal, təkcə böyük nasir, qüdrətli hekayələr ustadı kimi yox, həm də müasir Azərbaycan bədii nəsrinin, ədəbi və bədii dilinin inkişafı, qorunması və təbliği istiqamətində səmərəli xidmətlər göstərən, XX əsr hekayəçiliyinin, ədəbi-bədii dil zənginliyinin tükənməz imkanlarını nümayiş etdirən, elmi və bədii əsərləri ilə klassik ənənələri qorumaqla yanaşı, eyni zamanda davam və inkişaf etdirən sənətkar kimi dəyərləndirilir.

Qeyd olunur ki, Mir Cəlal dilçi alim olmasa da qüdrətli hekayə yaradıcılığı ilə bu gün də öz müasirliyini, təbliği təsir gücünü qoruyub saxlayan, kamil sənət nümunələri ilə müasir Azərbaycan bədii nəsrinin forma və məzmununa yenilik gətirən ustadlardan olmuşdur.

Ədib sadə və anlaşıqlı dili ilə fikirlərini sadə, hər kəsin anlayacağı bir formada oxucusuna çatdırır. O, sözə son dərəcə ehtiyatla, diqqət və qayğı ilə yanaşır, ona xalqın əmanəti kimi baxırdı. Odur ki, Mir Cəlalın fərdi üslubu dedikdə, bədii və elmi əsərlərinin söz materialı, bədiilik, fikir, mətləb, ahəngdarlıq, bədii gülüş, müxtəlif insan tipləri, hətta adi əşya, detal geniş mənada "həyat və bədii həqiqət", psixoloji anlar, hissi-idraki məqamlar yaratmaq məharəti nəzərdə tutulur.

*"Biz bədii dildə bəzən dialoqa çox az əhəmiyyət veririk. Halbuki, şirin və təbii yazan realist yazıçılar üçün dialoq çox böyük bir vasitədir. Mən bütün tipləri ədibin, yaxud qəhrəmanın dili ilə danışdıran çox süni bir üsuldan hələ də əl çəkməyənləri demirəm. Mən, dialoqların xarakterinə, təbiiliyinə çox diqqət edilməsini lazım bilirəm[28]".*

Yazıçının hadisələrin inkişafını oxucu ilə yazıçı arasında dialoq formasında təqdim etdiyi əsərlərindən biri "Günah kimdədir" hekayəsidir. Əsər klassik Şərq ədəbiyyatında geniş yayılmış məhəbbət motivinin yeni – sosial-psixoloji müstəvidə təqdimidir. Nizami Gəncəvi və Məhəmməd Füzuli yaradıcılığında eşqin qarşısında duran maneələr əsasən dövrün ictimai-siyasi və sosial reallıqları ilə bağlı olduğu halda, Mir Cəlal bu motivi fərqli istiqamətdə inkişaf etdirir. Yazıçı burada faciənin mənbəyini artıq xarici amillərdə deyil, insanların öz davranışında, xüsusilə də yalan və gizlədilmiş həqiqətlərdə axtarır. Rəşidin müraciəti ilə başlanan süjet xətti tədricən dramatik gərginlik qazanır və məlum olur ki, iki gəncin məhəbbətinin qarşısını alan əsas səbəb onların taleyində gizlədilmiş həqiqətdir. Əsərin kulminasiya nöqtəsində ortaya çıxan fakt – Səadət və Rəşidin bacı-qardaş olması – faciənin dərinliyini daha da artırır. Bəlkə də sevdiyinə qovuşa bilməyəcəyini hiss edərək Rəşid hər zaman bu mahnını oxuyurdu:

*"Bu dünyada daş daşıdım, gəmim dolmadı,*
*Gənc yaşımda bir qız sevdim, mənim olmadı!.."*[29]

Bu kontekstdə yazıçı "günah" anlayışını fərdi deyil, ictimai-mənəvi məsuliyyət kateqoriyası kimi təqdim edir. Valideynlərin uzun

---

[28] Mir Cəlal. Klassiklər və müasirlər / Mir Cəlal. – Bakı: Azərnəşr, – 1973. – s.6
[29] Mir Cəlal. Günah kimdədir? // – Bakı: Elm və həyat. – 1971. № 4, – s.24

illər gizlətdiyi həqiqət yalnız iki gəncin taleyini deyil, bütövlükdə cəmiyyətin mənəvi mühitini zədələyən amil kimi qiymətləndirilir.

Burada Mir Cəlalın realizmi özünü aydın şəkildə göstərir: hadisə qeyri-adi deyil, əksinə, real həyatın tipik problemlərindən biri kimi təqdim olunur.

"Günah kimdədir" hekayəsində diqqət çəkən ünsürlərdən biri də publisistik və bədii üslubun sintezidir. Yazıçı hadisəni yalnız bədii təsvir vasitəsilə deyil, eyni zamanda müəllif mövqeyinin açıq ifadəsi ilə təqdim edir. Bu, xüsusilə ritorik suallar və müraciətlərdə özünü göstərir.

Eyni zamanda, hekayədə müəllifin fikri dərin mənalı, qısa ifadələrlə ümumiləşdirməsi müşahidə olunur. Bu cür ifadələr həm mətnin ideya yükünü artırır, həm də oxucuda düşünmə və nəticə çıxarma meyli yaradır.

Yazıçının Cəlil Məmmədquluzadəyə həsr etdiyi "Radio qabağında" hekayəsində dil və üslub əsasən satirik və kinayəli çalarlarla səciyyələnir. Müəllif sadə məişət səhnəsi fonunda daha geniş ictimai-estetik problemi – gözəllik anlayışını müzakirə predmetinə çevirir. Xəbərləri dedikdən sonra aparıcının səsi birdən ucalır: *"Hörmətli eşidənlər, yəqin ki, siz böyük ədibimiz Mirzə Cəlili yaxşı tanıyır, onun dadlı-duzlu hekayələrini, kinayəli və qəhqəhəli felyetonlarını dönə-dönə oxuyursunuz... Onun vaxtında, ölkənin ağır maddi ehtiyac illərində qəzetlərdə uzun sürən bir mübahisə açılmışdı: gözəllik nədir?"*[30]

Radioda səsləndirilən müxtəlif fikirlər və onların təqdimat forması mətn daxilində kinayəli bir tonun formalaşmasına xidmət edir. Cəlil Məmmədquluzadənin mövqeyi vasitəsilə verilən cavab – gözəlliyin sadə insan həyatında, ailə mehribanlığında təcəssüm etməsi – əsərin əsas ideyasıdır. Bu yanaşma Mir Cəlalın öz estetik prinsipləri ilə də səsləşir. Yazıçı gözəlliyi abstrakt kateqoriya kimi deyil,

Beləliklə, Mir Cəlalın dil və üslub xüsusiyyətləri, onun bədii əsərlərinin dərinliyini artıran, oxucunun nəzərini çəkən və düşündürən bir vasitədir. Mir Cəlalın dilindəki sadəlik və

---

[30] Mir Cəlal. Əsərləri: [ 5 cilddə ] / M.Cəlal. – Bakı: Adiloğlu nəşriyyatı, –c.3. – 2013. – s. 382

mürəkkəblik arasında gözəl bir balans mövcuddur. Bu üslub sayəsində o, oxucunu yalnız hərəkət və hadisələrdən deyil, həm də qəhrəmanlarının daxili dünyasından xəbərdar edir, onları daha da dərin və çoxşaxəli şəkildə təqdim edir. Mir Cəlalın dil və üslubunda nəzərə çarpan bu zənginlik, onun bədii ədəbiyyatımızda mühüm yer tutmasını təmin edir.

II fəslin ikinci paraqrafı **"Bədii portret ustası Mir Cəlalın hekayələrində qəhrəmanların daxili dünyası"** adlanır və bu paraqrafda göstərilir ki, Mir Cəlalın əsərlərində zaman çoxqatlı bir fenomen kimi təqdim olunur, o yalnız müsbət və mənfi dəyişiklikləri deyil, həm də qəhrəmanın əxlaqi, sosial və psixoloji mübarizələrinin formalaşmasında təsirli bir rol oynayır.

Yazıçının "Anket Anketov" hekayəsinin qəhrəmanı Anket Anketov – özündə bir çox ziddiyyətli xüsusiyyətləri birləşdirən bir obrazdır. Onun xarakterinin formalaşması, sosial və psixoloji amillərlə sıx bağlıdır. Anketov, xüsusilə, cəmiyyətin ondan gözlədiyi və özünün istəkləri arasında çətin vəziyyətdədir. O, öz kimliyini, həyatını və fəaliyyətini başqalarının ona tətbiq etdiyi norma və gözləntilərdən azad olaraq formalaşdırmağa çalışır.

Hekayənin əvvəlində, Anketov sıradan bir məmur kimi təsvir edilir. Lakin onun daxili dünyasında baş verən dəyişikliklər və onun öz şəxsiyyətini tapmaq yolundakı mübarizəsi, onu çox qatlı bir obraz olaraq göstərir. Anketov, yalnız xarici hadisələrlə deyil, həm də daxili mübarizələrlə qarşılaşır. Bu qarşıdurmalar onun xarakterini formalaşdırır və zamanla onun ətrafdakı dünyaya münasibətini dəyişdirir.

Mir Cəlalın hekayələrində, xüsusən də "Sanbal" və "Möhür" kimi əsərlərində, qəhrəmanların daxili dünyasının zənginliyi və onların qarşılaşdıqları sosial reallıqların psixoloji təhlili böyük əhəmiyyət kəsb edir. Yazıçı, burada sadəcə cəmiyyətin qüsurlarını deyil, həm də insanın öz daxili dünyasında yaşadığı sarsıntıları və hərəkətlərini təhlil edir. "Sanbal" hekayəsi, həyatın keyfiyyətinə, işin mahiyyətinə və insanların bu işlərə münasibətinə dair dərin məna daşıyan bir əsərdir. Hekayədəki mesaj çox aydındır: insan yalnız kəmiyyətlə deyil, keyfiyyətlə də qiymətləndirilməlidir.

"Möhür" hekayəsi ilə isə, insanın daxili dünyasına dair dərin

bir psixoloji təhlil təqdim edilir. Bu hekayədə yazıçı, sosial reallıqlarda, xüsusən Sovet dövrünün çətinliklərində etibar və insanlıq anlayışının dəyişməsi məsələsinə toxunur, insanın "daxili möhür"ə, yəni öz ləyaqətinə, əxlaqına və insanlığa nə qədər sadiq qalması ilə bağlı bir mesaj verir. "Möhür" burada sosial və xarici təsirlərdən asılı olmayaraq, insanın əsl mahiyyətinin simvoludur.

Mir Cəlal nədən yazırsa-yazsın, öz hekayələrində həyatın dərin qatlarına nüfuz etməyə, hadisələrin daxili mahiyyətini açmağa çalışmışdır. Klassik hekayəçilik ənənəsindən bəhrələnən yazıçının zəngin bədii yaradıcılığında geniş yer tutan hekayələri ədəbi-bədii və estetik fikrin inkişafına ciddi təsir göstərmişdir. İdeya-bədii qayəsi aydın olan hekayələrdə maraqlı süjet, həyati konflikt, real və canlı insan xarakterləri Mir Cəlalı güclü bədii təfəkkürə malik yazıçı kimi səciyyələndirir[31].

İkinci fəslin **"Satirik və sosial qəhrəmanların ədəbi təsviri"** adlanan üçüncü paraqrafında deyilir ki, Mir Cəlal hekayələrinin lirik-romantik, yumoristik-satirik, xatirə, ailə-məişət və s. mövzularda yazılmasından asılı olmayaraq, özlərinə məxsus gözəlliyi, ritmi, ahəngi, təsir dairəsi və gücü vardır. Bu hekayələrin bədii təsir gücü və gözəlliyi bir də ondadır ki, ədib bədii həyat hadisələrinin, ədəbi qəhrəmanların mahiyyətini tipik zaman-şərait kontekstində, olduğu kimi üzə çıxarır, oxucular üçün mühüm olan həqiqətləri ön plana çəkir. Ən əsası da təsvir olunan hadisəyə, obraza sənətkar münasibətini, nifrətini, məhəbbətini bədii gülüş kontekstində açıq-aşkar bildirir, insanın-cəmiyyətin həyat fəaliyyətinin əsasını təşkil edən qanunlar və insan taleləri məsələlərinə toxunur.

Ədibin hekayələrində çox zaman satira ilə yumor bir-birini istisna etməyərək, əsərdə bərabər inkişaf etdirilir. Buna "Sara" hekayəsini misal gətirə bilərik. Orada həm Məmmədhüseyn, həm də Sara tənqid edilir. Amma birinci bütünlüklə, ikincisi isə demək olar ki, qismən inkar edilir. Birincisi tamam məhv olmaq, ikincisi isə islah edilmək, yenidən tərbiyələnmək yolundadır.

"Oturaqlar" hekayəsi də, sosial və satirik qəhrəmanların təsvirini çox dəqiq və maraqlı şəkildə təqdim edən nümunələrdən

---

[31] Əhmədov, T. Mir Cəlal: Ömrün mənalı anları: 2 clddə / T.Əhmədov. – Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – II cild. – 2014. – s.374

biridir. Bu hekayə eyni zamanda cəmiyyətin müxtəlif təbəqələrinin vəzifə və mövqelərinə dair dərin sosial tənqidi əks etdirir. Müəllif əsəri özünəməxsus kinayə ilə yazıb. Bu hekayədə təqaüdə çıxdıqdan sonra bekar qalan, bütün günü oturub müəyyən vəzifələrdə işləyən dost-tanışlarının qeybətini edən, öz mənasız, lazımsız söhbətləri ilə baş ağrıdan insanlardan bəhs edilir. Hekayədəki başlıca satirik qəhrəmanlardan biri, həm cəmiyyətdə yüksək mövqeyə sahib olan, həm də bu mövqeni öz şəxsi maraqları uğrunda istifadə edən bir obrazdır.

"Badamın ləzzəti" hekayəsində isə satirik qəhrəmanlar, cəmiyyətin psixoloji və sosial təzyiqlərini gülüş vasitəsilə göstərirlər. Bu obrazlar, yalnız fərdi deyil, ümumilikdə sosial və əxlaqi pozuntuları gülünc bir şəkildə nümayiş etdirərək, oxucuları həm güldürür, həm də düşündürür. Bu cür yanaşma, cəmiyyətin özünə baxışını dəyişdirməyə, ədalətsizlikləri və yanlışları göstərməyə xidmət edir.

Beləliklə, Mir Cəlalın hekayələrindəki satirik qəhrəmanlar, cəmiyyətin sosial və mənəvi səhvlərini gülüş və tənqid vasitəsilə ortaya qoyurlar. Onlar cəmiyyətin ədalətsizliklərinə qarşı müqavimət göstərən, sosial və mədəni məsələlərə dair dərindən düşünən və bu məsələləri ironik şəkildə əks etdirən obrazlardır.

Dissertasiya işinin III fəsli **"Mir Cəlal hekayələrində ədəbi qəhrəman tipləri və sosial kontekst"** adlanır və iki paraqrafdan ibarətdir. Bu fəslin **"Mir Cəlal hekayələrində müsbət və mənfi qəhrəmanların xarakteri"** adlı birinci paraqrafında qeyd olunur ki, Mir Cəlalın hekayələrində qəhrəman obrazlarının formalaşması yalnız sosial şəraitin məhsulu deyil, eyni zamanda daxili, psixoloji proseslərin də nəticəsidir. Məsələn, qəhrəmanın ilkin vəziyyəti – ailə mühiti, kənd-şəhər keçidi, sovet dövrünün sosial reallıqları – bu xarakterin iştirak etdiyi zaman çərçivəsində təhlil edilməlidir. Mir Cəlal, hekayələrində qəhrəmanın "könül aləmi"ni göstərmək üçün sadə sosial obrazlardan istifadə edir. Mətn analizində diqqət yetirilə bilər ki, qəhrəmanın xarakteri zamanla dəyişir: əvvəl sosial şablonlara uyğun gəlir, sonra isə daxili mübarizələri, şüurlu seçimləri ön plana çıxır.

Mir Cəlal yazıçısı olduğu dövrün sosial reallıqlarını, yəni

yoxsulluq, köç, kənddən şəhərə axın, sovet modernləşməsini ədəbiyyata daxil etmişdir. Hekayələrdə qəhrəman bu proseslərə şahid və iştirakçı olur. Yazıçının yanaşması sosial məsələləri yalnız sosial fon kimi təqdim etmir, onlar qəhrəmanın daxili aləmi ilə sıx bağlıdır: sosial dəyişikliklər qəhrəmanın zamanla necə ünsiyyət qurduğunu, necə dəyişdiyini göstərir.

H.E.Beyts yazır ki, *"bir atın ölümündən gənc qızın sevgisinə, təsadüfi bir təsvirdən, hadisələrdən hörülmüş bir narrativə, hətta bir şeirdən bir reportaja qədər hər şey hekayə ola bilər; bu elastik xarakterinə görə hekayənin sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür"*[32].

Mir Cəlalın "Mən zaminəm" hekayəsində müsbət və mənfi qəhrəmanların xarakterlərinin qarşılıqlı əlaqəsi, zamanın və sosial mühitin təsiri ilə daha da aydınlaşır. Əli, cəmiyyətin gözləntilərinə uyğun olaraq, əxlaqlı bir şəxsiyyət olaraq formalaşır. Qüdrət isə cəmiyyətin təzyiqlərinə qarşı durmaq əvəzinə, bu təzyiqlərdən istifadə edərək şəxsi məqsədlərinə çatmaq istəyir. Bu iki qəhrəman arasında zamanın, mühitin və sosial sistemin təsirinin qarşılaşdırılması, Mir Cəlalın ədəbiyyatında insanın daxili mübarizəsinin və zamanın ona təsirinin necə baş verdiyini göstərir.

Hekayə, zamanın və cəmiyyətin qəhrəmanların xarakterlərini formalaşdırmaqda nə qədər güclü təsirə malik olduğunu və insanın daxili prinsiplərini qorumağın nə qədər çətin olduğunu göstərir. Bu baxımdan, Mir Cəlal, həm müsbət, həm də mənfi qəhrəmanların xarakterlərini cəmiyyətin və zamanın təsiri ilə inkişaf etdirərək oxucuya dərindən düşündürən bir təcrübə təqdim edir.

Mir Cəlalın hekayələrində böyük və kiçikliyindən asılı olmayaraq yalnız insan surətlərinin, ədəbi qəhrəmanların deyil, həyat materialına daxil olan hər bir qabarıq hadisənin, əhvalat və vəziyyətin də, xüsusən hekayədə bəhs olunan zaman və şəraitin də bədii portreti məharətlə yaradılır. Bu cəhətdən də Mir Cəlal əsrinin bədii nəsrinə nümunə olan, istiqamət verən ədiblərdən, portret ustalarından idi.

III fəslin ikinci paraqrafı "**Zamana uyğun qəhrəman:**

[32] Bates, H.E. Yazınsal bir tür olarak kısa öykü / H.E.Beyts. Çev. Gökçen Ezber, – İstanbul: Bilge Kültür Sanat, – 2001. –176 s.

**müasirlik və ənənəvi mühitin qarşılıqlı əlaqəsi”** adlanır. Bu paraqrafda Mir Cəlal Paşayevin hekayələrindəki qəhrəmanların zaman amili ilə əlaqədar dərin təhlili təqdim edilir. Müasirlik və ənənəvi mühit arasında mövcud olan qarşılıqlı əlaqə, ədəbiyyatın inkişafı ilə yanaşı, həm də cəmiyyətin sosial və mədəni strukturunun təhlili verilir. Mir Cəlalın hekayələrində zaman anlayışı yalnız xarakterlərin daxili dünyasını formalaşdıran, eyni zamanda müasir və ənənəvi təsirləri birləşdirən əsas amillərdən biridir.

Mir Cəlalın hekayələrindəki qəhrəmanlar, çox zaman, müasir həyat tələbləri ilə ənənəvi dəyərlər arasında qalır. Onlar öz həyati seçimləri ilə qarşı-qarşıya qalaraq, cəmiyyətin onlardan gözlədikləri ilə şəxsi arzularını uyğunlaşdırmağa çalışırlar. Bu iki təsirin – müasirlik və ənənəvi mühitin – qarşıdurması və bəzən bir-birini tamamlaması, qəhrəmanların daxili konfliktlərini və sosial mühitlə münasibətlərini daha da mürəkkəbləşdirir.

Mir Cəlal, qəhrəmanlarının üzləşdiyi bu qarşılıqlı əlaqəni diqqətlə işləyərək, hər bir mühitin özünəxas xüsusiyyətlərini və bunun insan xarakterinə necə təsir etdiyini göstərir. Bu, yazıçının əsərlərində zamanın və məkanın təhlilinin necə insanın daxili dünyası ilə üzləşdiyini və bu üzləşmənin hansı sosial və mədəni məqamları ortaya çıxardığını əks etdirir.

Mir Cəlalın “Xallı muncuq” hekayəsi, müasirlik və ənənəvi mühit arasındakı qarşılıqlı əlaqəni çox incə bir şəkildə təqdim edir. Hekayə, xüsusilə qəhrəmanların zamanla mübarizəsini, ənənəvi dəyərlər ilə müasir anlayışların necə qarşı-qarşıya gəldiyini izah edir. Bu hekayədə qəhrəmanların daxili dünyası və onların ətraf aləmə uyğunlaşma prosesləri, zamanın cəmiyyətə təsiri ilə əlaqəli şəkildə aydın olur.

Zaman və məkanın qarşılıqlı əlaqəsinin, həmçinin bu komponentlərin ədəbi qəhrəmanların xarakterinin formalaşmasına təsirinin təhlili müasir dövrün sosial-siyasi mühiti ilə ənənəvi dəyərlər sisteminin qarşılıqlı münasibətlərinin bədii ədəbiyyatda ifadə xüsusiyyətlərini aşkara çıxarmağa şərait yaradır. Burada Mir Cəlalın əsərlərindən misallar gətirilərək, müasir və ənənəvi anlayışların qəhrəmanların daxili dünyasında necə birləşdiyi göstərilir.

Beləliklə, bu paraqrafda Mir Cəlalın əsərlərindəki qəhrəmanların zamanla əlaqəli inkişafını və müasirlik ilə ənənəvi mühitin qarşılıqlı təsirini ətraflı şəkildə araşdırılır. Bu təhlil, ədəbiyyatın cəmiyyətlə necə əlaqəli olduğunu və ədəbi qəhrəmanların daxili dünyasının və sosial mühitin qarşılıqlı təsirini necə nümayiş etdirdiyini anlamağa imkan verir.

Mir Cəlal Paşayevin hekayələrində zamanın, həmçinin ədəbi qəhrəmanların xarakterlərinin bədii quruluşu bu tədqiqatın əsas mövzularını təşkil edir. Dissertasiya işində, Mir Cəlalın hekayələrindəki zaman anlayışının və qəhrəmanların daxili dünyalarının ədəbi təhlili müasir yanaşmalarla dərinləşdirilmiş və sistemli şəkildə araşdırılmışdır.

Dissertasiya işi çərçivəsində aparılan tədqiqatlar aşağıdakı elmi ümumiləşdirmə və **nəticələrin** əldə edilməsinə imkan vermişdir:

Dissertasiyada Mir Cəlalın hekayələrində zaman anlayışının bədii quruluşu konkret nümunələr əsasında təhlil edilmişdir. Müəyyən olunur ki, bu hekayələrdə zaman yalnız hadisələrin baş verdiyi xronoloji çərçivə kimi deyil, eyni zamanda qəhrəmanların daxili dünyasının formalaşmasına və onların mənəvi-psixoloji inkişafına təsir göstərən əsas amil kimi çıxış edir. Yazıçı zamanın axını, təkrarı və dəyişmə dinamikasını bədii vasitələrlə ustalıqla təqdim edir, qəhrəmanların bu zaman dəyişmə prosesini ardıcıl şəkildə izləyir. Mir Cəlalın əsərlərində zamanın subyektiv təqdimatı isə oxucunun qəhrəmanın psixoloji vəziyyətini daha dərindən qavramasına imkan yaradır.

- Yazıçının hekayələrində zaman yalnız xronoloji çərçivə funksiyası daşımır, eyni zamanda qəhrəmanların mənəvi-psixoloji inkişafını şərtləndirən və onların daxili transformasiyasını müəyyən edən əsas amil kimi təqdim olunur;

- Mir Cəlalın hekayələrindəki qəhrəmanlar, yalnız xarici aləmdə deyil, həm də daxili dünyalarında baş verən dəyişikliklər nəticəsində inkişaf edirlər. Bu qəhrəmanlar sosial təzyiqlər, mədəni və psixoloji çətinliklər qarşısında öz kimliklərini axtarır və formalaşdırır. Tədqiqatda, qəhrəmanların daxili mübarizələri, əxlaqi dilemmasında baş verən dəyişikliklər və psixoloji sarsıntılar təhlil olunmuşdur;

- Mir Cəlalın əsərlərində sosial və satirik qəhrəmanlar cəmiyyətin sosial təbəqələrinin müxtəlifliyi ilə əlaqələndirilmişdir. Hekayələrdəki satira və yumor, həm sosial ədalətsizliyi, həm də cəmiyyətin mənfi xüsusiyyətlərini sərt şəkildə tənqid edir;

- Mir Cəlalın dili sadə və anlaşılan olmaqla yanaşı, bədii üslubla zənginləşdirilmişdir. Onun hekayələrində dilin sadəliyi və püxtəliyi sosial və psixoloji vəziyyətləri təsvir etməkdə böyük rol oynayır. Hekayələrində dilin və üslubun qəhrəmanların daxili dünyasına necə təsir etdiyini göstərmək, onların xarakterlərini və sosial mübarizələrini daha dərindən anlamağa imkan verir. Dil və üslubun birləşməsi, əsərlərin strukturunun və məzmununun mükəmməl şəkildə formalaşmasına şərait yaratmışdır;

- Tədqiqatın əsas nəticələrindən biri də Mir Cəlalın hekayələrindəki qəhrəman tiplərinin təhlilinin yeni yanaşmalarla aparılmasıdır. Bu qəhrəmanlar, yalnız sosial və psixoloji çətinliklərdən deyil, həm də zamanın və məkanın təsirindən formalaşırlar. Müasir və ənənəvi mühitin qarşılıqlı əlaqəsi, bu qəhrəmanların daxili dünyasında baş verən dəyişikliklərə və onların zamanla necə dəyişdiklərinə əhəmiyyətli təsir göstərir. Tədqiqatda qəhrəmanların sosial mühitlə qarşılıqlı əlaqəsi, onların daxili inkişafı və sosial dəyişikliklərə qarşı necə reaksiya verdikləri daha dərindən təhlil edilmişdir;

- Tədqiqat zamanı yazıçının Salman Mümtaz adına Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunan çoxsaylı əlyazmaları ilə tanış olmuşuq. İstər sağlığında, istərsə də vəfatından sonra çap olunan kitabları, xüsusən 2013-cü ildə çap olunan beş cildlik və 2021-ci ildə isə “Ədibin evi” tərəfindən nəşr olunan “Qayğılar” toplusu nəzərdən keçirildikdən sonra Mir Cəlalın indiyədək nəşr olunmayan 17 hekayəsinin olduğu məlum olmuşdur.[33] Bunlar “Zuqulba havaları”, “Yenilik hissi”,

---

[33] Paşayev, M.C. “Mənalı sükut”, “Saxla”, “Bir qəlbin yanğısı”, “Bar ağacı” və s. hekayələr: avtoqraf (ərəb əlifbası ilə) // S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond 1, siyahı №1, 149 vərəq; Paşayev, M.C. “Yanşax”, “Ulduz kəndinin şəfəqləri”, “Hilal dayı”, “Tərpənir”, “Zirəklik” və s. hekayələri // S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Fond 1, siyahı №2, 108 vərəq.

“Roman evləri gəzir”, “Göydən gələn adam”, “Bağbanın hekayəsi”, “Say və sayaq”, “Saxla”, “Məhəbbətin gücü”, “Quzu”, “Kəmtərovun dəstgahı”, “Nisgil”, “Qız qəlbi”, “Albom”, “Bacı qardaş”, “Sədaqət”, “Sanbal”, “Narkom oğlu” hekayələridir. Hekayələrin ilk vərəqləri dissertasiyanın əlavələr bölməsində yerləşdirilmişdir.

Tədqiqatın nəticəsi və davamı olaraq, eyni zamanda ədibin yazmış olduğu hekayələrin xronologiyasını nəzərə çatdırmaq məqsədilə bütün hekayələr çap olunduğu illərə görə qruplaşdırılmış və cədvəl şəklində dissertasiyada təqdim olunmuşdur.

## Dissertasiya işinin əsas məzmunu və müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunub:

1. “Açıq kitab” romanına dair bəzi qeydlər // BDU-nun yaranmasının 95 illik yubileyinə həsr olunmuş “Azərbaycan filologiyasının aktual məsələləri” mövzusunda respublika elmi-nəzəri konfransının materialları. – Bakı: – 17 dekabr, – 2014, – s.132-137.
2. Mir Cəlal hekayələrində müəllim surəti // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları. – Bakı: – 7-8 aprel, – 2015, – s. 438-439.
3. Mir Cəlal hekayə ustası kimi (Yazıçının “Xatirə hekayələri” əsasında) // Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransının materialları. – Bakı: – 17 aprel, – 2015, – s. 905-906.
4. Mir Cəlal hekayələrində müharibə mövzusu (Yazıçının “Vətən yaraları” və “Ananın köynəyi” hekayələri əsasında) // Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları. – Bakı: – 24-25 may, – 2016, – s.108-111.
5. Mir Cəlal yaradıcılığında Mirzə Cəlilin yeri (Yazıçının “Radio qabağında” hekayəsi və məqalələri əsasında) // “Filologiyanın aktual problemləri” mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. – Bakı: – 18-19 may, – 2016, – s.76-

77.
6. Mir Cəlal yaradıcılığında sevgi motivi // III Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. – Bakı: – 25-27 may, – 2016, – s.95-98.
7. Mahir hekayə ustası – Mir Cəlal // Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransının materialları, II kitab, – Bakı: – 29-30 aprel, – 2016, – s.1135-1137
8. Художественное отражение психологии человека в рассказах Мир Джалала // – Алматы: Казахский Национальный Педагогический Университет имени Абая. Вестник: Серия «Филологические науки». – 2017. №4(62), –с.191-197
9. Mir Cəlal hekayələrinin dil xüsusiyyətlərinə dair // Doktorantların və gənc tədqiqatçıların XXI respublika elmi konfransının materialları. – Bakı: – 24-25 oktyabr, –2017, – s.161-163
10. Mir Cəlal hekayələrinin özünəməxsus dili // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları, – Bakı: – 17-18 may, – 2017, – s.62-65.
11. Mir Cəlal hekayələrində müəllim obrazı // Görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlalın 110 illiyinə həsr olunmuş Respublika elmi-nəzəri konfransının materialları. – Bakı: – 1 may, – 2018, – s.246-249.
12. Mir Cəlal hekayələrində tərbiyə-əxlaq problemləri // Filologiyanın aktual problemləri mövzusunda respublika elmi-nəzəri konfransının materialları. – Bakı: – 16-17 may, – 2018, –s. 56-58.
13. Mir Cəlal hekayələrində sosial-mədəni problemlərin əksi (Yazıçının həkimlərə həsr edilmiş hekayələri əsasında) // – Naxçıvan: AMEA Axtarışlar: folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix. Naxçıvan bölməsi, İncəsənət, dil və ədəbiyyat İnstitutu. –2018. C.8, №2(28), – s.40-45.
14. Mir Cəlal hekayələrində mənəvi-əxlaqi problemlərin ideya-bədii əksi // –Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual

problemləri (ali məktəblərarası elmi məqalələr məcmuəsi). – 2018. №4, – s.164-168.
15. Mir Cəlalın çap olunmamış hekayələri // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal. – 2019. №4 (112), – s.130-134.
16. Mir Cəlalın satirik hekayələrində ədəbi qəhrəman və zaman // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, II c. –Bakı: – 22-23 noyabr, – 2018, –s.200-202.
17. Mir Cəlal hekayələrində əxlaqi-tərbiyəvi problemlərin ideya-bədii əksi // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublika elmi konfransının materialları, c. 2. –Bakı: – 3-4 dekabr, – 2019, –s.137-139.
18. Идейно-художественное отражение сатиры и юмора в рассказах Мир Джалала // Eurasia Science. Сборник статей XXIII международной научно-практической конференции. – Москва: – 15 августа, –2019, – с.138-139.
19. Mir Jalal stories in Azerbaijani literary studies // –Bakı: Filologiya məsələləri, –2024. №9, – s.401-407.
20. The role of Mir Jalal in the development of the story genre in Azerbaijan // Issues of the development of turkology in the era of globalization and education. Proceedings of the international scientific-practical conference, – Samarkand: – April 23-24, –2025, –p.319-323.
21. Literary hero and time as the main problem in Mir Jalal's stories // – Karaganda: Bulletin of Karaganda University. Series Philology, Scientific journal,–2025, - Vol 30, - Issue No. 4 (120), – p.115-124

Dissertasiyanın müdafiəsi 22 may 2026-cı il tarixində saat 14[00]-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən FD 1.31 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəhəri. İstiqlaliyyət küçəsi, 53.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.04.2026
Kağızın formatı: A5
Həcm: 39 145
Tiraj: 100